2026-cı ilin oktyabr ayı üzrə nəticələr

2026-cı ilin oktyabr ayı üzrə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik və istilik enerjisi, təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 1202 müraciət daxil olub.

Bunlardan:

Elektrik enerjisi təchizatı ilə bağlı 186-sı məlumat üçün olmaqla cəmi 953 müraciət;

Təbii qaz təchizatı ilə bağlı 20-si məlumat üçün olmaqla cəmi 204 müraciət;

İstilik təchizatı ilə bağlı 2-si məlumat üçün olmaqla cəmi 22 müraciət;

1-i məlumat üçün olmaqla 23 müraciət isə digər məsələlərlə bağlı olub.

1202 müraciətdən:

429 müraciət Agentlik tərəfindən araşdırılıb və cavablandırılıb (12 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti quruma göndərilib);

4 müraciət Energetika Nazirliyi ilə müştərək icra olunub;

560 müraciət hazırda baxılma prosesindədir;

209 məlumat xarakterli müraciətdən 111-i qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

ELEKTRİK VƏ İSTİLİK ENERJİSİ, QAZ TƏCHİZATI

Yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 15 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;

39 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;

“Azərenerji” ASC və “Azərişıq” ASC-nin nümayəndələrinin iştirakı ilə 95 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib.

İNZİBATİ XƏTA HAQQINDA İŞLƏRƏ BAXILMA

Agentliyin səlahiyyətlərinə aid olan Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin

müvafiq maddələri üzrə 10 inzibati xəta haqqında işə baxılıb və inzibati tənbeh vermə haqqında qərarlar qəbul olunub.

BÜDCƏDƏN MALİYYƏLƏŞƏN MÜƏSSİSƏLƏRDƏ KEÇİRİLƏN NƏZARƏT TƏDBİRLƏRİ

Elektrik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədilə 79 nəzarət tədbiri keçirilib;

Qazdan səmərəli istifadənin, "Qazdan istifadə Qaydaları"nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə 62 nəzarət tədbiri keçirilib.

PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI

Agentlik tərəfindən hesabat dövrü ərzində 27 müəssisədə 105 nəfər olmaqla elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin texniki istismar, təhlükəsizlik texnikası qaydaları üzrə peşə bilikləri yoxlanılıb, yoxlama nəticəsində biliklərin artırılması üzrə təkliflər verilib, bu istiqamətdə müvafiq şəxslərə metodiki yardım göstərilib.